Elm .- 2026.- 16 yanvar (№ 2).- S.6.

# AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

**Ey azərbaycanlı!**




Dünyanın harasında doğulsan, yaşasan da sən, Azərbaycanı vətən bilməlisən! Milli dəyərlərin, dövlətçiliyin təəssübünü çəkməlisən.

Ana dilini bilməli, özünü müstəqil Respublika, vətən və xalq yolunda şəhid, ya qazi növbəsində görməlisən!

Oturaq, əkinçi, qədim yerli xalqsan, həm də günçıxandan, günbatana elatsan.

Şərqin, Qərbin, keçmiş və indinin, həm də gələcəyin qovşağındasan, doqquz iqlimli, nurlu gecəli, qızmar günəşli, üç rəngli dünyadansan, Azərbaycandasan!

Bəşəri dəyərlərin, səmavi dinlərin mahiyyətindəki yaxşılar, insanlıq xilqətindəki mələkxətli naxışlar milli varlığının simasında cizgilər salıbdır, lap Adəmdən bu günlərə pak qalıbdır.

Odur ki, nurlu, düz, haqq yoldasan, öz-özündən yaxşılıqsan, yetkin, kamil ali xalqsan!

**Ey azərbaycanlı!**

Hər bir xalqın baba ocağı, dədə oylağı vardır, orda hər zaman ilk bahardır.

Qudsal türk ocağında möhtəşəm tonqal yanmış, ətrafa köz salmış. O közün biri sənsən, ya oylaqda nəhəng şərq palıdı vardı, altı laləzar, üstü qardır, budağı sənsən, dərinliklərdən aydınlıq alan möhtəşəm köklü, boranlara, qaranlıqlara sinə gərən azman gövdəyə bağlı, Azərbaycan türküsən, azərbaycanlısan. Vətəndə əsrlərdir birgə yaşadığın qardaş xalqlarla güclüsən, şanlısan, onlarla bütövlükdəsən, fəxr et ki, azərbaycanlısan!

Unutma, qürur duy, həm də layiq ol ki, bağrı şəhid qanlısan!

Qədimdən gəlib, bu gündən keçib, gələcəyə gedən elm, mədəniyyət, mənəviyyat yüklü, müqəddəs yoldakı karvanın sarvanısan, sən elə zaman içində Azərbaycan zamanısan!

Əsrlərin insanlıq, qəhrəmanlıq yadigarısan!

**Ey azərbaycanlı!**

Böyük, ali dövlətlər, imperiyalar quran xalqlar kimi, sənin də tarixlər boyu geniş vətənin olmuş, sərhədləri gah böyümüş, gah da kiçilmiş, çiçək açmış, sonra solmuş.

Bu bir tarixi qanundur " həqiqət də kapital kimi güclünündür, hər yer onlara " vətən" olmuş!".

Dərbəndimiz, Borçalımız, Təbrizimiz milli həsrətimizdir, İrəvan öz şəhərimizdir.

Azərbaycançılıq müqəddəs, çətin, şərəfli yoldur, yolçuları ləpir-ləpir gəlirlər.

Ləpirləri salır şəhidlər, alimlər, milli dəyərlər yaradan dahilər, fikir- ideya sahibləri- dövlətçilik quran azərbaycanlı kişilər!

**Ey azərbaycanlı!**

Hər zaman xalqı, vətəni, dövləti və dini yolunda haqq mübarizəsi aparan şəhidlik, qazilik, məktəbin olub, qəhrəmanlıqları milli yaddaşa dolub. Müstəqil dövlətinin, qanının, canının, Azərbaycanının ilk şəhadət məktəbini Cümhuriyyət əsgəri açıb, ruhumuza işıq saçıb!

Qanlarıyla bayrağımız ucalıb, özləri üç rəngdə qalıb. Ruhumuzda istiqlal günəşi ucalıb. O vaxtdan şəhidlik, qazilik məktəbin milli şüurun kimi bütövdür, zamandan düz, məkandan dairəvidir, bir şəhidimiz hamısı, hamısı da biridir, onlar bayrağımız, torpağımızla əbədidir, diridir.

**Ey azərbaycanlı!**

Sənin mahiyyətində dostluq, ağlıq, işıq, hər yerdə günəş, sülh arzusu vardır. Yaxın, uzaq xalqlar dostlarındır. Ancaq ermənilik adlı xəstəlik də vardır. Xalqımıza qarşı etdikləri vəhşilikləri, şeytanlıqları, soyqırımı heç vaxt unutma, çomaqsız qalma.

Qonşu kimi yaşa, dost olma.

Döyüş meydanında üz-üzə gəlməyi arzula, sülh vaxtı yuxuya getmə, ehtiyatı əldən vermə.

Dünyanın harasında elm varsa getmək, ehtiyacı olana kömək etmək bəşəri vəzifəndir.

Bir də heç vaxt unutma, Azərbaycana günəş Azərbaycandan doğur!

**Ey azərbaycanlı!**

Müasir, azad, Azərbaycan türküsən, yəni azərbaycanlısan.
Dilin Azərbaycan türkcəsidir, yəni Azərbaycan dilidir.
Azərbaycan sözü əsl mənada olub vətəninin, dilinin, xalqının adı, özü!
Unutma, mövcudluq kimliyindir Azərbaycan sözü!
Dinin İslamdır, müsəlmansan.
Vətənə, xalqa, dövlətə xidmət borcun, vəzifəndir!
Xidmətin elə özü vətəndir!
Bunun üçün güclü olmalısan, ya yenə də güclü olmalısan! Sənin gücün elə Azərbaycanın gücüdür!
Güc isə fiziki sağlamlıq, elm, mənəvi və maddi zənginlik, azərbaycançılıq məfkurəsi, milli dövlətçilik şüurunun vəhdətidir.
Vətən daşları ölkəmizin tükənməyən,
Əsl milli sərvətidir!

*24.03.2022*

***Yazıçı-alim Sadıq QARAYEVİN***
***"Azərbaycançılıq məfkurəsi" kitabından***
***müəllifin "Ön söz əvəzi"***